# "...DÜNYAYA SÖZÜM VAR"



*Fərqanə SƏFƏRLİ*

* * *

Suyun da bir yaddaşı var deyiblər,
Su üzündə yazı yazmış mələklər.
Su pakliqdir bəlkə dua ediblər,
Bir gün savab, bir gün günah fələklə.

Gözyumulu dəryalara varasan,
Bir gün soyuq, bir gün isti ürəklə.
Arzularda, ümidlərdə azasan,
Bir gün doğru, bir gün yanlış diləklə.

Hədəfini tapşırasan göylərə,
Bir gilavar, bir də xəzri küləklə.
Torpaq kimi baxmayasan yerlərə,
İz qoyasan, burda qaldı deməklə.

Qorxmayasan, ümmanlarda azasan,
Bir üzü tərs, bir üzü düz yedəklə.
Öz nağlını özün gözəl yazasan,
Biri vardır, biri yoxdur deməklə.

* * *

Ruhun sızlayanda qəlbinə tutun,
Sevinsin həm könlün, həm də ki, yuxun,
Səni qucaqlayıb sıxanda qorxun,
Sevinci Tanrının izindən tanı.

Sevgi gözlərindən uzaq düşsə də,
Sənə Sənsizliyin özü desə də,
Bir bəxşiş vermədən geri gəlsə də,
Onu yalan-dolan sözündən tanı.

Payızda çəməndən gül uman hanı?
Çoxdan başlədiyin sis-duman hanı?
Dosta yaşadığın o güman hanı?
Gümanı həyatın özündən tanı...

* * *

Dostum, gəl birazca söhbətləşək biz,
Keçmişə qarışan xəyallar kimi.
Öyrənim səndəki gizli məqamı,
Sarıyım səndəki acı yaranı.

Gəl, biraz sözümüz sözə qarışsın,
Səhərdən axşama müjdələr verək.
Sahildə qumuna günə qarışsın,
Fikirlər dənizin dalğalarıtək.

De görüm, gözündə nədir bu kədər,
Nədir başdan başa qəmə batmısan,
Nədir ürəyindən gedən bir yolun,
Sonunda dayanlb sərhəd qoymusan.

Dostum, gəklbirazca söhbətləşək biz,
Yuxuya, gerçəyə neçə don verək.
Göydən yağış yağar, yuyar hər şeyi,
Biz də keçənləri xatirə bilək.

* * *

Tanrım, sözüm vardır sənə,
Giley deyil, söhbət kimi.
Arzuları bol-bol çin et,
Günah deyil, savab kimi.
Ümid mələkləri uçur,
Elə daim başımızda.
Doğruları özün çlxar
Ədalətlə qarşımıza.
Təəcübümüz səninlədir,
Həm çətini, həm asanı.
Hədəfini sən itirmə,
Nəinki bir yarasanın.
Nəfəsindən ruh yaradıb,
Bizə "bizlik"gətirmisən.
Sən ilahsan insanlara,
İman, düzlük yetirmisən.
Yapışmışıq ətəyindən,
Süzük etmə parçamızı.
Tanrım, eşit qəlb evindən,
Niyyətləri, duamızı...

* * *

Bir kibrit qutusu köksündə alov
Tək-tək yanacaqdır vaxtı çatanda.
İçinin dərdini kənar edəcək,
Özü də bu közlə hədər gedəcək.

Bəlkə isidicək sönmüş ocağı,
Qaranlıq otaqda şam yandıracaq.?!
Bəlkə aldadaraq körpə uşağı,
Əlinə, üzünə qara yaxacaq?!

Bir acı həvəsə səbəb olarkən,
Bir tütün yandırıb qəlb isidəcək.
Ruhuna bir nəfəs tüstü alarkən,
Sahibin qüssəsi çıxacaq demək.

Qutusu üstündə qeydlər olur,
Kimi zaman yazır, kimi ad yazır.
Kibritin qisməti təzadlı yoldur,
Adına yanmağı, sönməyi yazır.

* * *

Bir yosunam dəryaların dibində,
Hardan bilsin burda duyan ürək var,
Gedən, gələn gəmilərin birində,
Bir üzü düz, bir üzü tərs dilək var,

Ağ geyinən Qaragünə bənzərəm,
Sahillərdə addım-addım gəzərəm,
Hər gülənə, ağlayana nəzərəm,
Göz qoymayın, gözsüz olan kələk var.

Sitayişim hayanadır görəsən?
Məndə olan mənsizliyi biləsən,
Hey axtardım bəlkə qaçıb gələsən,
Beşiyində ağlayan bir mələk var.

Yaşıl baxan baxışları saraldı,
Baharkən ruhunu bir payız sardı,
Hardasa bir kiçik qaranquş vardı,
Uçub gedib yuvasında lələk var.

Nağıldakı Simurq uçub gəlsənə,
Bu yuvanın lələyini görsənə,
Biri vardır, biri yoxdur desənə,
Kibrit əldə dayanan bir fələk var.

*Aprel, 2019*

* * *

Bir gün qocalacaq bu şəhər özü,
Bəlkə saçları da ağaracaqdır.
Ondan küsüb gedən hər bir gözəlin,
Baxıb arxasınca boylanacaqdır.

Bəlkə həsrət dolu gözyaşı ilə,
Yuyacaq hər kəsin ayaq izini.
Bir kədər boğacaq hər baxışların,
Həm qara, həm də ki, ala gözünü.

"Qayıt"- desə belə, qayıtmayacaq,
Ayrılıq şəhərə duman tək çöküb.
Bir gün yuxusundan ayıltmayacaq,
Onun eşq günəşi belini büküb.

## Sözüm var...

Bu həyata bəs etməyir bir ömür,
Hardasa gözləyən ömür-günüm var.
Yəqin zaman oralarda ölçülmür,
Bu dünyadan, o dünyaya sözüm var.

Xislətimi dəyişmədi buralar,
Verən canı tanrım bilində alar,
Diləklərim yerini orda tapar,
Bu dünyadan, o dünyaya sözüm var.

Cənnətləri payızında solursa,
Ağrıları yara kimi qalırsa,
Həyat da bir ölüm sonlu nağılsa,
Bu dünyadan, o dünyaya sözüm var.

Yüz atəşi odu var yerimizin,
Yerdən qalxan ruhu var külümüzün,
Qoy cəhənnəm lap dilimi yandısın,
Bu dünyadan, o dünyaya sözüm var.

*2022*